Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 10 (21.420)

16 yanvar 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, sağlam cəmiyyət quruculuğunda və gənclərlə işin düzgün təşkilində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Bu gün muxtar respublika əhalisinin 60 faizdən çoxunu 35 yaşadək gənclərin təşkil etməsi qarşıya mühüm vəzifələr qoyur. Əgər sabitliyi qorumaq, cinayət hadisələrinin qarşısını almaq, ölkənin gələcək inkişafını təmin etmək istəyiriksə, o zaman gənclərlə işə ciddi diqqət yetirmək lazımdır. Muxtar respublikada gənclərin sağlam həyat tərzinə yönəldilməsi, onların vətənpərvər ruhda böyüdülməsi və peşə sahibi olması diqqət mərkəzində saxlanılır, hər il bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı müşavirə keçirilir, qarşıda duran vəzifələr müzakirə olunur.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bədən tərbiyəsi və idmanın inkişafı sahəsində görülən işlər barədə çıxış edərək demişdir ki, hazırda muxtar respublikada 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, Şahmat Mərkəzi, Atıcılıq Mərkəzi, rayon mərkəzlərində şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, stadion və süni örtüklü mini-futbol meydançaları, yeni tikilən tam orta məktəblərdə müasir idman zalları yaradılmış, olimpiya ağırlıqqaldırma qurğuları və 790 sadə tipli idman avadanlıqları istifadəyə verilmişdir. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi ilə yanaşı, onun təşkilati-hüquqi bazası da inkişaf etdirilmiş, muxtar respublikada 12 idman federasiyası yaradılmışdır. Hazırda muxtar respublikada bütün yaş qrupları üzrə bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayı 40 min nəfəri ötmüşdür. 2015-ci ildə məşqçilərə təlimlər, treninqlər, gənc idmançılara nümunəvi dərslərin keçirilməsi diqqətdə saxlanılmış, bədii gimnastika və stolüstü tennis bölmələri yaradılmış, üzgüçülük, ağırlıqqaldırma idman növlərinin inkişafı məqsədilə işlər davam etdirilmişdir. Ötən il muxtar respublika idmançıları dünya çempionatlarında 11, Avropa çempionatlarında 2, beynəlxalq turnirlərdə 16, Azərbaycan birinciliklərində 36 medal qazanmışlar. Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının idmançısı I Avropa Oyunlarında iştirak etmiş və bürünc mükafata layiq görülmüşdür.

Naxçıvan Güləş Federasiyasının üzvü Qabil Musayev demişdir ki, muxtar respublikada müasir idman infrastrukturunun yaradılması, maddi-texniki bazasının gücləndirilməsi gənclərin sağlamlığının qorunması, onların asudə vaxtlarının səmərəli təşkili, gənc idmançıların hazırlanması, istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır. Muxtar respublika idmançıları dövlət qayğısını daim üzərlərində hiss edirlər. Bu qayğı isə idmançıları yeni uğurlar qazanmağa həvəsləndirir. Qabil Musayev yaradılan şəraitə görə muxtar respublika idmançıları adından minnətdarlıq etmiş, etimadı doğruldacaqlarını bildirmişdir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, ötən müddətdə Naxçıvan Muxtar Respublikasının Karate-do Federasiyası öz fəaliyyətini qura bilməmişdir. Ona görə də Karate-do Federasiyasının fəaliyyətində dönüş yaradılması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Fazil Ələkbərov federasiyanın yeni sədri təqdim olunur.

Fazil Ələkbərov göstərilən etimada görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ötən müddət ərzində idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlər görülmüş, Azərbaycan idman yarışlarının keçirildiyi beynəlxalq mərkəzə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasında da əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna mühüm əhəmiyyət verilir. Muxtar respublikada aparılan idman siyasətinin kökündə idmanın kütləviliyinə nail olmaq, onu inkişaf və təbliğ etdirmək, sağlam nəsil yetişdirmək dayanır. Bu məqsədlə muxtar respublikada müasir idman infrastrukturu yaradılmışdır. Bununla yanaşı uşaq və gənclərin idmana cəlbi istiqamətində də müəyyən işlər görülmüşdür. Hazırda muxtar respublikada 7 yaşdan 18 yaşadək 89 min uşaq və gənc vardır ki, onun da 46 min 853-ü oğlan, 42 min 147-si qızdır. Oğlanlardan 30 min 55 nəfəri, yaxud 64 faizi, qızlardan isə 7 min 226 nəfəri, yaxud 17 faizi idmanla məşğul olur. Sağlamlıq imkanları məhdud olan uşaq və gənclərdən isə 133-ü idmanla məşğul olur ki, bunun da 102-si oğlan, 31-i isə qızdır. Əvvəlki dövrlərlə müqayisədə 2015-ci ildə gənclərin idmana cəlbi istiqamətində irəliləyişlər olsa da, aparılmış təhlillər onu deməyə əsas verir ki, yaradılan şəraitdən heç də tam istifadə olunmur.

Ali Məclisin Sədri demişdir: Bu gün ona nail olmalıyıq ki, muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı üçün imkanlardan bütün vətəndaşlar, o cümlədən gənclər səmərəli istifadə etsinlər. Ona görə də Gənclər və İdman Nazirliyi və idman federasiyaları muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi istiqamətində fəaliyyətlərini gücləndirməli, idmanın kütləviliyi təmin olunmalı, idman obyektlərindən və qurğularından istifadə əhali üçün əlçatan olmalıdır. Mütəxəssislər və peşəkar məşqçilər olmadan gənc idmançıları yetişdirmək və onları beynəlxalq yarışlara hazırlamaq mümkün deyil. 2015-ci ildə federasiyaların bu istiqamətdəki fəaliyyətlərində canlanma müşahidə olunsa da bu, işin tam həll olunması demək deyil. Buna görə də Gənclər və İdman Nazirliyi, eləcə də idman federasiyaları məşqçilərin hazırlanması və peşəkar məşqçilər dəvət etməklə muxtar respublikada seminar və məşğələlərin keçirilməsini davam etdirməlidir. Muxtar respublikada keçirilən idman yarışları istedadlı gənclərin aşkara çıxarılmasında mühüm rol oynayır. Gənclər və İdman Nazirliyi və idman federasiyaları istedadlı gənclərlə işi düzgün təşkil etməli, onların həvəsləndirilməsini diqqətdə saxlamalıdır.

Qeyd olunmuşdur ki, ümumtəhsil məktəblərində nümunəvi şəraitin yaradılmasına baxmayaraq, hələ də fiziki tərbiyə fənninin tədrisində mövcud imkanlardan lazımınca istifadə olunmur. İbtidai siniflərdə isə fiziki tərbiyə dərslərinin digər dərslərlə əvəz olunması halları mövcuddur. Uşaqlarla məktəbdənkənar bədən tərbiyəsi və idman tədbirlərinin aparılması, o cümlədən uşaq və gənclərin asudə vaxtlarında bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsi səviyyəsi olduqca aşağıdır. Uşaqların sağlamlığının qorunması baxımından bu məsələlər tam aradan qaldırılmalıdır. Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, idman federasiyaları, şəhər və rayon icra hakimiyyətləri böyüməkdə olan nəslin fiziki inkişafına, onların sağlamlığına qayğı ilə yanaşmalı, istər ümumtəhsil, istərsə də uşaq-gənclər şahmat və idman məktəblərində tədrisin səviyyəsini artırmalı, uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkilinə nail olmalı, məktəblilərin spartakiadasının keçirilməsi davam etdirilməlidir.

Təhsil müəssisələrində bədən tərbiyəsi və idman dərslərinin tədrisi diqqətdə saxlanılmalıdır. Gənclər və İdman Nazirliyi idman federasiyaları ilə birgə hamiliyə götürdüyü Bədən tərbiyəsi və idman ixtisası üzrə peşəkar gənc kadrların hazırlıq səviyyəsini artırmalı, Təhsil Nazirliyi ilə birlikdə ümumi təhsil müəssisələrində fiziki aktivliyin təbliği ilə bağlı tədbirlər həyata keçirməlidir. Muxtar respublikada oğlanlarla yanaşı, qızların da idmana cəlbi diqqətdə saxlanmalıdır. Gənclər və İdman Nazirliyi və idman federasiyaları qızların da məşğul ola biləcəkləri idman növləri üzrə fəaliyyəti gücləndirməlidir. Uşaqların yaş qruplarına görə federasiyalara cəlb edilməsi, federasiyadaxili yarışların təşkil olunması, idman sahəsində xüsusi istedadı olan uşaqların üzə çıxarılması, onların idmançı kimi formalaşması məqsədilə idman federasiyaları şəhər və rayon icra hakimiyyətləri ilə birgə fəaliyyətə üstünlük verməli, şəhər və rayon ərazisində bölmələrin fəaliyyəti üçün zəruri şərait yaradılmalı, gənc idmançıların yerlərdəki idman qurğu və obyektlərindən istifadəyə cəlbinə, eləcə də onların qorunub-saxlanılmasına da diqqət artırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Gənclər və İdman Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyası sahəsində fəaliyyətini davam etdirməli, imkansız ailələrdən olan uşaq və yeniyetmələrin mövcud idman qurğu və zallarından istifadələrinə şərait yaratmalıdırlar. İdman elə bir sahədir ki, onun inkişafı üçün hamı təşəbbüskarlıq göstərməlidir. Muxtar respublikanın kütləvi informasiya vasitələri sağlam həyat tərzinin formalaşdırılmasında, əhali sağlamlığının möhkəmləndirilməsində bədən tərbiyəsi və idmanın rolu barədə tematik materiallar hazırlamalı, bədən tərbiyəsi və idmanın kütləviləşməsinə öz töhfəsini verməlidir.

Ardı 2-ci səhifədə

Sağlam həyat tərzi insanlarda uşaq və gənclik dövründən başlayır. Əgər biz gəncləri sağlam həyat tərzinə yönəldə, onları fiziki və əqli cəhətdən sağlam böyüdə bilsək, onda gələcəyimizi təmin edən gənclər də sağlam və güclü olacaqlar. Muxtar respublikada idmanın inkişafının sağlam gəncliyin formalaşdırılmasındakı rolunu nəzərə alaraq aid təşkilatlar qarşılarında duran vəzifələrin məsuliyyətini dərk etməli, uşaq və gənclərin idmana cəlbi sahəsində səylə çalışmalıdırlar.

Ali Məclisin Sədri yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaranmasının 90 illiyinin tamam olduğunu bildirmiş, bu münasibətlə nazirliyin kollektivini təbrik etmişdir.

Sonra "Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adına, "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanlarına layiq görülənlərə müvafiq mükafatların, bir qrup idmançıya isə pul mükafatlarının təqdimatı olmuşdur.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 14 yanvar tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında idmanın inkişafında səmərəli fəaliyyətlərinə görə 1 nəfər "Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı, 1 nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı, 3 nəfər isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri təltif olunanlara "Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının, "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanlarının vəsiqə və döş nişanlarını, 5 idmançıya isə pul mükafatlarını təqdim etmişdir.

Təltif olunanlardan Emin Hacıyev, Xəyal Qurbanov və mükafatlandırılan Nihad Orucov əməklərinə verilən qiymətə görə minnətdarlıq etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 90 illiyi qeyd olunub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasından 90 il ötür. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Gənclər və İdman Nazirliyində davam etdirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edib. Bildirilib ki, Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 15 yanvar 1926-cı il tarixli qərarı ilə Mərkəzi İcraiyyə Komitəsinin yanında Bədən Tərbiyəsi və İdman Şurası yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1994-cü il dekabrın 30-da imzaladığı Fərmanla 1946-cı il martın 30-da yaradılan Naxçıvan Muxtar Respublikası Bədən Tərbiyəsi və İdman Komitəsi ləğv edilib və onun bazasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il iyunun 23-də imzaladığı Fərmana əsasən, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Naxçıvan Muxtar Respublikası Gənclər, İdman və Turizm Nazirliyinə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 fevral 2006-cı il tarixli Fərmanına əsasən isə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi yaradılıb.

Azad Cabbarov qeyd edib ki, ümummilli lider Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrdən gənclərin himayədarı kimi sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin olunmasını vacib məsələlərdən biri kimi hər zaman diqqətdə saxlayıb. Muxtar respublikada da gənclərlə iş və idman sahəsində mühüm işlər görülüb. Belə ki, son 20 il ərzində muxtar respublikamızda idman infrastrukturunun yenidən qurulması, yeni idman obyektlərinin, olimpiya-idman komplekslərinin inşa edilməsi bu sahənin inkişafı ilə bağlı möhkəm təməl yaradıb.

Muxtar respublikada idmanın təşkilati-hüquqi bazasının yaradılması və inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılıb, 2002-ci ildə Boks, Güləş, Karate-do, Şərq Döyüşü Sənəti, Şahmat, Futbol, Yüngül Atletika, Voleybol, Basketbol, 2006-cı ildə Paralimpiya, 2013-cü ildə isə Hava və Ekstremal İdman Növləri, Atıcılıq federasiyaları, həmin federasiyaların perspektivli idmançılarının məlumat bankı yaradılıb. Həmçinin federasiyaların internet saytları istifadəyə verilib. Keçirilən idman tədbirləri saytlarda daim işıqlandırılmaqdadır. "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun 2013-cü il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Ali Məclis Sədrinin tövsiyələri nəzərə alınaraq fəaliyyəti bərpa edilib, Azərbaycan I divizionu oyunlarında iştirakı təmin edilib. Komanda 2013-2014-cü il mövsümündə I divizionun qalibi olub. Komanda hazırda muxtar respublika birinciliyində iştirakını davam etdirir.

Vurğulanıb ki, muxtar respublikamızda qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülür. Ötən il Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində "Xatun" Bədii Gimnastika İdman Klubu fəaliyyətə başlayıb. Hazırda muxtar respublikada 100-dən çox 3-11 yaşlı qızlar bədii gimnastika ilə məşğul olur. Həmçinin cari ilin əvvəlində nazirliyin tərkibində stolüstü tennis bölməsi də açılıb. Bölməyə müraciət edənlərin əksəriyyətinin gənc qızlar olması isə sevindirici haldır.

"Muxtar respublikamızda yaradılan müasir idman infrastrukturu, öz növbəsində, Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün geniş imkanlar açmışdır", – deyən gənclər və idman naziri qeyd edib ki, 2003-cü ildə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 20 yaşa qədər şahmatçılar arasında dünya çempionatı, 2011-ci ildə karate üzrə "Naxçıvan Open" beynəlxalq turniri, 2011-ci ildən etibarən hər il mütəmadi olaraq ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə "Naxçıvan Kuboku" uğrunda beynəlxalq turnirlər, "Naxçıvan Open" beynəlxalq şahmat festivalları keçirilib. 2012-ci ildə üzgüçülük üzrə Azərbaycan çempionatı, 2014-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş qol-bol paralimpiya idman növü üzrə beynəlxalq turnir, 2014-cü ildə veteranlar arasında ağırlıqqaldırma üzrə dünya kuboku uğrunda yarış, o cümlədən 2015-ci ildə kikboksinq üzrə "Azərbaycan kəməri" uğrunda yarış muxtar respublikanın idman həyatını daha da canlandırıb. Bütün bunlar yaradılan müasir idman infrastrukturu nəticəsində mümkün olub.

Bildirilib ki, bu gün muxtar respublikamızda, ümumilikdə, 40 min nəfərə yaxın yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur. Muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Ötən il Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının 1 idmançısı "Bakı-2015" ilk Avropa Oyunlarında iştirak edib və bürünc medala layiq görülüb.

Azad Cabbarov qeyd edib ki, bundan sonra da birlikdə çalışıb muxtar respublikanın adını daha yüksək zirvələrə qaldırmalı, üçrəngli bayrağımızı beynəlxalq yarışlarda dalğalandırmalıyıq.

Gənclər və idman naziri muxtar respublika gəncliyini və qürur mənbəyimiz olan idmançılarımızı yubiley münasibətilə təbrik edib, onlara gənclər və idman sahəsində gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev çıxış edərək ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında mühüm işlər görüldüyünü, bu sahənin maddi-texniki bazasının möhkəmləndirildiyini bildirib. Vurğulayıb ki, bu gün gənclərin asudə vaxtlarının səmərəli təşkili, idmanın kütləviliyinə nail olunması, idman federasiyalarının işinin düzgün qurulması istiqamətində muxtar respublikada ardıcıl tədbirlər görülür.

"Azərbaycan Respublikasının Fəxri bədən tərbiyəsi və idman işçisi" Heyrat Qulamov dövlətimizin idmana və idmanın inkişafında əməyi olan insanlara göstərdiyi diqqət və qayğıdan bəhs edib. Bildirib ki, idmanda müasir cəmiyyət üçün son dərəcə vacib olan dəyərlər – mübarizədə imkanların bərabərliyi, uğurun bərabər mübarizədə qazanılması, birinci olmağa can atmaq, yalnız rəqibə deyil, özünün mənfi duyğularına da qalib gəlmək bacarığını formalaşdırmaq kimi dəyərlər özünü büruzə verir.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 90 illiyi münasibətilə gənclər, bədən tərbiyəsi və idman sahəsində səmərəli fəaliyyət göstərən nazirliyin əməkdaşlarına qiymətli hədiyyələr təqdim olunub.

Tədbirə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekun vurub.

Rauf ƏLİYEV

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının növbəti şura iclasında 2015-ci ildə görülmüş işlərə yekun vurulmuş, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində təşkilat üzvlərinin vəzifələri müəyyənləşdirilmişdir.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının şura iclası keçirilib

Təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev mövzu ilə bağlı məruzə etmişdir. Qeyd olunmuşdur ki, Ali Məclisin sessiyasında da vurğulandığı kimi, 2015-ci ildə muxtar respublika həyatının bütün sahələrində inkişaf təmin olunmuş, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Qazanılan bütün uğurlar Azərbaycanda, eyni zamanda muxtar respublikamızda ulu öndər Heydər Əliyev ideyalarına dərin sədaqətin bəhrələridir. Fərəhli haldır ki, bu uğurların əldə edilməsində Yeni Azərbaycan Partiyası üzvlərinin xidməti daha çoxdur.

Əmir Babayev bildirmişdir ki, rayon təşkilatı iş planına uyğun olaraq 2015-ci ildə bir sıra tədbirlər həyata keçirmişdir. Şura və idarə heyətinin yığıncaqlarında həyati əhəmiyyət kəsb edən məsələlər müzakirə edilmiş, qərarlar qəbul olunmuş və onların icrasına nəzarət artırılmışdır. Bundan başqa, əlamətdar və tarixi günlər kütləvi tədbirlərlə qeyd edilmişdir. Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının və Heydər Əliyev adına Gənclər Birliyinin xətti ilə də bir sıra tədbirlər keçirilmişdir.

Vurğulanmışdır ki, təşkilat 10 min 388 nəfər partiya üzvünü özündə birləşdirir. Onların 2 min 967 nəfərini, yəni 25,5 faizini qadınlar, 3 min 556 nəfərini, yaxud 34,2 faizini gənclər təşkil edir. Ötən il Yeni Azərbaycan Partiyası sıralarına 112 nəfər qəbul olunmuşdur ki, bunların da 46 nəfəri qadınlar, 88 nəfəri gənclərdir. Bu gün əsas vəzifələrimizdən biri əhali arasında ideya-siyasi işi gücləndirmək, partiya üzvlərinin fəallığını daha da artırmaq üçün yerlərdə mütəmadi tədbirlər keçirmək, ölkəmizdə gedən ictimai-siyasi proseslərdə partiyamızın rolundan söhbətlər açmaq, keçiriləcək siyasi kampaniyalarda partiyanın mövqeyini, partiya üzvlərinin vəzifələrini izah etməkdən ibarət olmalıdır. Ümumiyyətlə, hər bir Yeni Azərbaycan Partiyası üzvü tutduğu vəzifədən asılı olmayaraq, bundan sonra da partiya məsuliyyətini dərindən dərk etməli, partiyanın Proqram və Nizamnaməsində nəzərdə tutulmuş prinsiplərə əməl olunmalı, siyasi proseslərdə, quruculuq, abadlıq və yaşıllaşdırma tədbirlərində fəallıq göstərilməlidir.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin sədri Orxan Məmmədov və başqaları çıxış etmişlər.

Növbəti maarifləndirici tədbir

Şərur rayonunun Aşağı Daşarx kəndində rayon prokurorluğunun təşkilatçılığı ilə növbəti maarifləndirici tədbir keçirilmişdir.

Tədbirdə Şərur rayon prokurorunun müavini, kiçik ədliyyə müşaviri Anar Həsənov "Təbii qazın, istilik və elektrik enerjisinin talanması cinayətdir" mövzusunda məruzə etmişdir.

Bildirilmişdir ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 116-cı maddəsində elektrik və istilik enerjisindən istifadə qaydalarının pozulmasına səbəb olan hərəkətlər və bu əməllərə görə nəzərdə tutulmuş məsuliyyət təsbit olunmuşdur. Təbii qazın, istilik və elektrik enerjisinin talanmasına görə cinayət məsuliyyəti isə sonradan Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əlavə edilmiş 189-1.1-ci maddəsində öz əksini tapmışdır. Bu maddənin tələblərinə görə qaz, elektrik və istilik şəbəkələrinə qanunsuz qoşulmaqla enerji resurslarının talanması inzibati və cinayət məsuliyyəti yaradır. Eyni əməllər külli miqdarda ziyan vurulmaqla törədildikdə isə bu məsuliyyət daha ağır olur.

Anar Həsənov təbii qazın, elektrik və istilik enerjisinin talanması, təbii qazdan, istilik və elektrik enerjisindən qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələrin tələbləri barədə sakinlərə ətraflı məlumat vermişdir.

Rayon Prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən III dərəcəli hüquqşünas Arif Quliyev "Torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi" mövzusundakı məruzəsində nəzərə çatdırmışdır ki, ölkəmiz müstəqilliyini əldə etdikdən sonra torpaq üzərində dövlət mülkiyyəti ləğv edilmiş, torpaqlar dövlət, bələdiyyə və xüsusi mülkiyyətə verilmiş, hüquq pozuntularının qarşısının alınması üçün bir sıra normativ aktlar qəbul edilmişdir. Bunlardan biri də Azərbaycan Respublikasının Torpaq Məcəlləsidir. Məcəllənin 111-ci maddəsinə əsasən, torpaqların özbaşına tutulması qanunla qadağan edilir. Özbaşına tutulmuş torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpağın əvvəlki vəziyyətinə gətirilməsi, yəni orada olan tikililərin, qurğuların sökülməsi isə torpağı zəbt etmiş hüquqi və fiziki şəxslər tərəfindən və ya onların vəsaiti hesabına həyata keçirilir. Torpaq Məcəlləsində o da əksini tapmışdır ki, özgənin mülkiyyətində olan torpağın alınıb-satılması, bağışlanması, dəyişdirilməsi barədə və Məcəllədə nəzərdə tutulmuş digər qaydaları pozmaqla bağlanan əqdlər etibarsız hesab olunur.

Məruzəçi torpaq sahələrinin istehsalat və məişət tullantıları ilə çirkləndirilməsinə və sair bu kimi əməllərə, torpaq sahələrinin təyinatına uyğun olmayan məqsədlərlə istifadə edilməsinə, mülkiyyətdə və istifadədə olan torpaqların hüdudlarının, nişanlarının məhv edilməsinə görə İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş cərimələr barədə də tədbir iştirakçılarına məlumat vermişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Elman MƏMMƏDOV

20 Yanvar – milli qürur və ləyaqət günü

Naxçıvan Dövlət Universiteti nəzdindəki Heydər Əliyev Universitetinin 203-cü məşğələsi keçirilib. 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr edilən məşğələdə əvvəlcə Azərbaycan xalqının milli müstəqilliyi uğrunda canını qurban vermiş şəhidlərin xatirəsi yad edilib. Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov məşğələni giriş sözü ilə açaraq 20 Yanvar hadisələrini Azərbaycan xalqının azadlıq və milli istiqlal uğrunda mübarizə yolunda dönüş mərhələsi kimi dəyərləndirib.

Azərbaycan tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Nadir Hüseynbəyli "Qanlı Yanvar – Azərbaycanın müstəqilliyinə gedən yol" adlı məruzəsində bildirib ki, 20 Yanvar faciəsi çökməkdə olan nəhəng sovet imperiyasının öz tərkibində olan respublikaların, xüsusilə də türkdilli xalqların azadlıq ideyalarını boğmaq üçün hazırladığı vahid ssenarinin tərkib hissəsi idi. Xalqımızın ümummilli lideri Heydər Əliyev o vaxt siyasi hakimiyyətdən uzaqlaşdırılmış, kommunist diktaturası Azərbaycana qarşı siyasi təzyiqləri daha da gücləndirmiş, bütün bunlara baxmayaraq, ölkədə milli azadlıq hərəkatı daha geniş vüsət almışdı. Məhz bu hərəkatı boğmaq üçün yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə hücum zamanı əksəriyyəti erməni olan əsgər və zabitlər qadına, qocaya, körpəyə, hətta təcili yardım maşınlarına atəş açmış, onları vəhşicəsinə qətlə yetirmişlər. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən bu faciə istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının apardığı mücadilənin unudulmaz səhifəsidir.

Qeyd olunmuşdur ki, bu faciəni dünya ictimaiyyətindən gizli saxlamağa çalışan sovet imperiyası bunun üçün bir çox vasitələrə əl atsa da, istəyinə nail ola bilməmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında 20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirmiş, xalqımıza qarşı həyata keçirilmiş bu cinayəti pisləmiş, əlyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi ittiham etmişdir.

Bu faciəyə ilk siyasi-hüquqi qiyməti də ulu öndərimiz Heydər Əliyev vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında görkəmli dövlət xadiminin təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi.

Sonda tədbir iştirakçıları "Qanlı Yanvar" sənədli filminə baxmışlar.

Mehriban SULTAN

Orda bir yurdum qalıb

Kərkinin işğalından 26 il ötür

26 il bundan qabaq, soyuq yanvar ayının əvvəllərində qədim oğuz yurdu Naxçıvanın sərhəddə yerləşən kiçik bir kəndində həyat öz axarı ilə davam edirdi. Bacalar tüstüləyir, ocaqlarda yeməklər bişir, uşaqlar həyət-bacalarda oyan-buyana şütüyür, qoyun-quzu tövlələrdə yemlənirdi. İnsanlar bir az səksəkəli olsalar da, öz gündəlik qayğıları ilə məşğul idilər. Heç kim ağlına gətirmək istəmirdi ki, cəmisi bir neçə gün sonra onlar öz yurdlarını tərk edib gedəcəklər. Onlar bilmirdilər ki, topu-topxanası, zirehli texnikalardan qalası olan zülmkar erməni cəlladlarının Kərki kəndinin gələcək taleyi üçün mənfur planları hazır idi. Bu planların reallaşması neçə-neçə evi sahibsiz, neçə-neçə insanı didərgin qoyacaqdı, xanimanları yandırıb xarabazara çevirəcəkdi.

...O hadisələrin canlı şahidi, tarix üzrə fəlsəfə doktoru, dosent Vaqif Məmmədov Kərki kəndindən bəhs edən kitabında yazır ki, 1990-cı il yanvar ayının 15-də Kərki kəndinin müdafiəçiləri sovet hərbçilərinin tələbi ilə axşam saat 6-7 radələrində Kərkini tərk ediblər. Kərki sovet hərbçiləri tərəfindən yerli sakinlərdən alınıb ermənilərə verilində (15 yanvar 1990-cı il) hələ nə Qarabağ işğal olunmuşdu, nə Xocalı faciəsi baş vermişdi, nə Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları ermənilərin əlinə keçmişdi, nə də Sədərək üzərinə erməni hücumları olmuşdu. Kərkinin işğalı 20 Yanvar Bakı qırğınının, dəhşətli Xocalı faciəsinin, işğal olunan rayonlarımızın acı taleyinin və nəhayət, ermənilərin Sədərəyə silahlı basqınlarının başlanğıcı oldu.

Kərkidə nələr baş vermişdi, kəndin son müdafiəçiləri kimlər idi, onlar hansı şəraitdə vuruşurdular və kənd necə işğal edildi, bundan çoxları xəbərsiz idi. 1990-cı il yanvarın 15-də səhər saat 4 radələrindən saat 18-19-a qədər Kərki kəndində şiddətli döyüşlər olub. 20-30 nəfər Kərki sakini 2-3 nəfər Şərur Rayon Polis Şöbəsinin əməkdaşı ilə birlikdə 2-3 min silahlı ermənilərə qarşı vuruşsa da, qüvvələrin qeyri-bərabər olması döyüşçülərin davam gətirməsinə imkan verməyib və axşamüstü onlar bir neçə saatlıq fasilədən sonra yenə başlanan güllə yağışı altında qarlı dağ yolu ilə kəndi tərk ediblər. Beləliklə, Kərki kəndi ermənilər tərəfindən işğal olunub...

70-dən artıq ailənin, 350 nəfərə yaxın əhalinin yaşadığı kənddə 1990-cı illərə qədər də əhali çox əziyyət çəkib. Ozamankı Sədərək kəndindən 12 km aralıda – İrəvan-Cermuk yolunun 20-30 metrliyində yerləşən kiçik bir kənddə yaşamaq çox çətin olub. 1988-ci ildən yoldan keçən erməni maşınlarından kəndə müxtəlif çaplı silahlardan atəş açılmasına başlanılıb.

Kərki kəndi uğrunda gedən döyüşlərin iştirakçılarından Rza Cabbarovun, Ağoş ləqəbi ilə məşhur olan Oruc Orucovun, Yavər Ələkbərovun və başqalarının Vaqif Məmmədov tərəfindən qələmə alınmış xatirələri o hadisələr barədə müfəssəl məlumat almağa imkan verir. Bu xatirələrdə qeyd edilir ki, 1988-ci ildən əli silah tuta bilən 45 nəfər siyahıya alınıb, hər birində 15 nəfər olmaqla kəndin üç yerində post yaradılıb. Sədərəkdən, Şərurdan, ümumiyyətlə, Naxçıvanın müxtəlif bölgələrindən gələn könüllülər də daxil olmaqla, Kərki 2 il bu vəziyyətdə qorunub. 1990-cı

il yanvarın 15-də səhər saat 4-də sakinlər güllə səsinə oyanıblar. Səhər saat 8-ə qədər evlərdən çıxmaq mümkün olmayıb. Yanvarın 14-dən 15-nə keçən gecə Ermənistan tərəfdən Cermuk yolu ilə gələn kalonu kəndin müdafiəçiləri müşahidə ediblər. Kəndin ən uca yerində yerləşən ehtiyat növbətçilərin vasitəsilə həmin kalonda gedən maşınlar sayılıb. 115 erməni maşını keçib. Bu, onları şübhələndirib. Postlara ayıq olmaq üçün xüsusi tapşırıqlar verilib və səhər saat 4 radələrində 2-3 min erməni kəndi mühasirəyə alıb.

O hadisələrin şahidlərindən və döyüşlərin iştirakçılarından olan, hal-hazırda Yeni Kərki kəndində yaşayan Elşad Məmmədov deyir ki, Kərki kənd sakini Oruc Orucovun kustar üsulla hazırlanmış topu düşmənin itki ilə geri çəkilməsinə səbəb olub. Bu topu Oruc Orucov hələ 1960-cı ildə Kərki dağlarında kinofilm çəkilişindən sonra əldə edib, bir neçə il o topun üstündə işləyib onu saz hala gətirib, dəfələrlə sınaqdan keçirib. Bunun bəhrəsini isə 1990-cı il yanvarın 15-də bütün Kərki sakinləri görüb.

... Yanvarın 15-i sübh tezdən erməni silahlıları bir neçə tərəfdən – Şırran körpüsü, O tay, Köhnə Kərki və Sənəm zağası tərəfdən kəndə tərəf irəliləyərək Kərkini üzük qaşı kimi mühasirəyə alıblar. Vəziyyət getdikcə çətinləşib. Şırran körpüsü tərəfdən kəndə hücum edən ermənilər qədim yurd yerimizi yandırmağa başlayıblar. Belə bir vaxtda Ağoş (Oruc Orucov) topun lüləsini aşağıya – ermənilərin cəmləşdiyi yerə çevirib, topu tarazladıqdan sonra ilk atəşi açıb. Top atəşini gözləməyən ermənilər ölənləri və yaralananları da elə oradaca buraxaraq qaçmağa başlayıblar. Bu topla daha yeddi mərmi atılıb, qaçanların əksəriyyəti də oradaca məhv edilib. Bir neçə saat sonra maşınlar geri qayıdıb, ölənlərin cəsədləri və yaralılar maşınlarla yaxın kəndlərə göndərilib. Top atəşindən sonra kənd camaatını qoruyacaqlarına yalandan söz vermiş, elə bunun üçün də məktəb binasında qərarlaşmış ruslar da hadisə yerinə gələrək topu görəndə mat-məəttəl qalıblar. Axşam saatlarında isə elə həmin ruslar tərəfindən kəndi qoruyanlara son dəfə xəbərdarlıq edilib və kənddən çıxmaları tövsiyə olunub. Mərmilər tükəndiyindən kəndin müdafiəçilərinin başqa çıxış yolu olmayıb və onlar qaranlıq düşən zaman kəndi tərk etməyə məcbur olublar.

Müasir mənbələr bu kənd haqda nə deyir

Apardığımız araşdırmalardan belə məlum olur ki, ötən əsrin əvvəlində Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində anklav vəziyyətə düşən Kərki kəndi Qarabağda separatçı münaqişənin qızışmaqda olduğu bir vaxtda işğal edilib. Həmin vaxt ermənilər təkcə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə yox, Azərbaycanın Ermənistanla sərhədboyu kəndlərinə qarşı da silahlı hücumlar həyata keçirirdilər. Kəndin işğal olunmasında qonşu dövlətdə dislokasiya olunmuş 7-ci sovet ordusunun hissələrinin də "əməyi" az olmayıb. Bəs 26 ildir ki, işğal altında olan Kərki kəndi indi hansı vəziyyətdədir? Bu barədə müxtəlif informasiya mənbələri əsasında müəyyən nəticələr çıxarmaq olar. Mənbələrdə qeyd edilir ki, Ağrı vadisini İrəvanla birləşdirən yeganə avtomobil yolunun kənarında, olduqca əlverişli coğrafi mövqedə yerləşən kənd hazırda Kərkinin işğalında iştirak etmiş və Vaqif Kazımov tərəfindən öldürülmüş bir ermənininin adı ilə kimi tanınır.

Kərki kəndi ələ keçirilməndən sonra orada əvvəlcə Azərbaycandan köçən ermənilər məskunlaşıb. Lakin onların əksəriyyəti burada duruş gətirməyiblər, müxtəlif yerlərə köçüblər. Hazırda kənddə müxtəlif regionlardan sürgünə göndərilmiş ermənilər məskunlaşıb. İşğal olunmuş digər ərazilər kimi, bu kəndin də rəsmi statusu olmadığı üçün onu, onun üzdəniraq "sakinləri"ni də taleyin ümidinə buraxıblar. Kəndin Ermənistan torpağı kimi leqallaşdırılması məsələsi dəfələrlə hökumət qarşısında qaldırılsa da, hökumət beynəlxalq təşkilatların diqqətini çəkməmək üçün bu işə "qol qoymur", məsələnin həllini Qarabağ probleminin həllinə bağlayır. Bəzi qüvvələr isə gec də olsa, kəndin statusunu tanımaq, onun sakinlərinin torpaq sahələrini rəsmiləşdirmək, kəndə qaz çəkmək və su problemini həll etmək üçün təzyiqlər edirlər. Kəndin indiki "sakinləri" düşmən ölkənin ayrı-ayrı regionlarında pasport qeydiyyatındadırlar.

Köhnə Kərkidən yeni Kərkiyə

Yeni Kərki kənd tam orta məktəbinin direktoru Aygün Bayramova bugünkü gənclərin Vətənə məhəbbət ruhunda tərbiyə olunmaları üçün yaxın tarixdə baş verən hadisələr, qəhrəmanlarımızın keçdikləri döyüş yolu, Kərki kəndinin taleyi haqda şagirdlərlə mütəmadi olaraq söhbətlərin aparıldığını deyir. Bildirir ki, kərkililər qoçaq, məğrur, torpaqlarını qorumağı bacaran insanlar olub və bundan sonra da belə olacaq. Kərki kəndi mövcud olduğu dövrdə bir o qədər də diqqət görməmişdi. Yalnız kənd sakinlərinin şikayətlərindən sonra, 1989-cu ilin aprel ayında kəndin

sosial-iqtisadi inkişafı ilə bağlı ovaxtkı Naxçıvan MSSR Nazirlər Soveti qərar qəbul etmişdi. Lakin gec idi. Çünki 1988-ci ildə başlanan hadisələr elə sürətlə cərəyan edirdi ki, o vaxt ancaq kəndi və kənd adamlarını qurtarmaqdan söhbət gedə bilərdi. Təəssüf ki, kəndi qurtarmaq mümkün olmadı. Kərkililər nə qədər müqavimət göstərsələr də, yurd yerimiz ermənilərin əlinə keçdi. İnsanların bir qismi isə indiki Kəngərli rayonu ərazisində məskunlaşdılar və buraya Yeni Kərki adı verildi. Öz ata-baba torpaqlarından zorla çıxarılmış kəndin sakinlərinin üzləşdikləri problemlərin aradan qaldırılması istiqamətində ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi hesabına kərkililərin problemləri öz həllini tapdı, onlar üçün ayrılmış torpaq sahəsində yeni mənzillər tikildi. Kənd sakinlərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlər görüldü. Kənddə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, feldşer-mama məntəqəsi, məktəb yaradıldı, kənd qazlaşdırıldı, evlərə telefon xətti çəkildi. 2010-cu ildə isə kənddə kompleks quruculuq işləri aparıldı, yeni məktəb binası, kənd və xidmət mərkəzləri inşa edildi. Heç kim inanmazdı ki, bir gün biz o kəndsiz qalacağıq. O kənd də bizsiz qalmağa məcbur ediləcək. Gözləmirdik belə olacağını. Ancaq sən saydığını say, gör fələk nə sayır. Mən və mənim kimi yüzlərlə insanın gözləri hələ də yol çəkir. Oradan çıxan kərkililərin bir qismi Kəngərli, Şərur, Babək, Ordubad rayonlarında, Naxçıvan və Bakı şəhərlərində, bir qismi isə Qax rayonunda yaşayırlar. Dövlətimiz kərkililərə hər cür qayğı göstərsə də, doğma yurd həsrəti hələ də içimizi yandırır. Ora qayıtmaq ümidlərimiz hələ də yaşayır. Bugünkü gənclik Yeni Kərkidə böyüyüb. Bizim gördüyümüz Kərki haqqında ancaq söhbətlərimizi eşidiblər.

Yeni Kərkinin gənc sakinlərindən Hafiz İsmayılbəyli deyir ki, dağların o tayında qalan kəndimiz haqda atamdan, yaxın qohum-əqrəbadan eşitmişəm, ora getməyi, kəndin buz bulaqlarının suyundan içməyi, dədə-baba məzarlığını ziyarət etməyi arzulamışam. Kəndin şəkillərinə baxanda ürəyimdə istər-istəməz bu torpağa qayıtmaq həvəsi yaranıb. Mən və mənim kimi gənclər and içmişik ki, nəyin bahasına olursa-olsun, bu torpaqları azad edəcəyik, bu kənd yenə bizim yurd yerimiz olacaq.

Kərkinin azad olunacağına inam böyükdür

Bu gün bir çox ermənipərəst dairələr, eləcə də Ermənistan müxalifəti Azərbaycanı zəif görmək istəklərinə rəğmən həqiqəti etiraf etməyə məcbur olurlar. Bu həqiqət də ondan ibarətdir ki, Azərbaycanın güclü ordusu var və bu ordu istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Kərkililər əmindirlər ki, Ermənistan məğlub tərəf kimi danışıqlar masasına oturdulacağı təqdirdə onların kəndlərinin qaranlıq taleyi üçün də işıq ucu görünəcək. Beynəlxalq aləmdə diplomatik mənzərənin bütünlüklə Azərbaycanın xeyrinə dəyişməsi, beynəlxalq təşkilatlar, dünyanın super gücləri tərəfindən ölkəmizin ərazi bütövlüyü haqqında səsləndirilən bəyanatlar da ermənilərin diplomatik cəbhədə məğlubiyyətindən xəbər verir.

Dövlətimizin artan gücü və hərbi qüdrəti, bir də Azərbaycan Prezidenti cənab İlham Əliyevin qətiyyətli mövqeyi belə bir inam yaradır ki, tezliklə əzəli və əbədi torpaqlarımız, eləcə də Naxçıvan Muxtar Respublikasının əraziləri olan Kərki və Nüvədi kəndləri də işğaldan azad olunacaq. Dövlət başçısının ***"biz öz ərazi bütövlüyümüzü istənilən yolla azad edəcəyik"*** *kimi qətiyyətli bəyanatı da bu inamdan xəbər verir.*

Səbuhi HÜSEYNOV

Karate-do üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən karate-do üzrə Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 90 illiyinə həsr edilmiş birinciliyi keçirməkdə məqsəd karate-do idman növünü yeniyetmə və gənclər arasında təbliğ etmək, muxtar respublikada fəaliyyət göstərən və federasiyanın tərkibində olan klubların işini gücləndirməkdən ibarət olub.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 80-dən çox idmançı mübarizə aparıb. Çəkisiz olaraq 5 yaş qrupu üzrə təşkil edilən yarış beynəlxalq qaydalar əsasında keçirilib.

Yekun nəticəyə görə, 8-9 yaş qrupunda Seyran Quluzadə, 10-11 yaş qrupunda Vüsal Seyidov, 12-13 yaş qrupunda Murad Həsənəliyev, 14-15 yaş qrupunda Sərcan Məmmədov və 16-17 yaş qrupunda Abbas Qasımov bütün görüşləri qalib kimi başa vuraraq birincilikdə ən yüksək zirvəni fəth ediblər.

Sonda ilk 3 pillədə qərarlaşan idmançılar diplomlarla təltif olunublar.

Ceyhun MƏMMƏDOV

Humanitar aksiya başa çatıb

Bakı şəhərində fəaliyyət göstərən Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti dəfələrlə muxtar respublikaya gələrək humanitar aksiya keçirib. Belə tədbir Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayonlarını da əhatə edib. Bu aksiyalarda yüzlərlə xəstə şəfa tapıb.

Xəbər verdiyimiz kimi, xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə yüksəkixtisaslı həkim heyəti yanvarın 13-də Şərur rayonunda humanitar aksiyaya start vermişdi.

Aldığımız məlumata görə, həkimlərdən ginekoloq Kənarə Abdullayeva, kardioloq Nailə Həsənova, endokrinoloq Gülxanım Qurbanova, cərrah Zahid Zahidov, allerqoloq Fəxrəddin Cəfərov, nevropatoloq Qabil Bayramov, qastroloq İradə Abbasova və başqaları Şərur rayonunda müxtəlif xəstəliklərdən əziyyət çəkən pasiyentləri müayinə və müalicə ediblər. Ümumilikdə, üç gün ərzində 2504 pasiyent üzərində müayinə aparılıb, ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz olmaqla, 75 əməliyyat həyata keçirilib. Əməliyyatların hamısı uğurlu olub.

Humanitar aksiya dünən başa çatıb.

Xəbərlər şöbəsi

Sərhəd-keçid məntəqələrində yoluxucu xəstəliklərə qarşı lazımi profilaktik tədbirlər həyata keçirilir

Dünyanın bir çox yerlərində, o cümlədən qonşu ölkələrdə "donuz qripi" kimi də tanınan H1N1 virusunun yayılması və bu xəstəliyə yoluxanlar arasında ölüm faktlarının qeydə alınması ilə bağlı xəbərlər yayılmaqdadır. Xəstəliyin sürətlə sərhədləri aşmasına baxmayaraq, əvvəlcədən görülmüş və müntəzəm olaraq davam etdirilən profilaktik tədbirlər nəticəsində muxtar respublikamızda epidemioloji vəziyyət stabildir. İnsanlar arasında yoluxma faktı və təhlükəli hallar müşahidə edilmir.

Naxçıvanın yerləşdiyi təbii-coğrafi şəraiti nəzərə alsaq, əlbəttə ki, xaricdə, xüsusən də qonşu ölkələrdə qeydə alınan yoluxucu xəstəliklər və təhlükəli viruslarla bağlı ciddi təhdid və risklər mövcuddur. Ona görə də muxtar respublikamızın bütün sərhəd-keçid məntəqələrində zəruri profilaktik işlər, lazımi sanitar və dezinfeksiya tədbirləri görülür, gömrük orqanları gücləndirilmiş rejimdə fəaliyyət göstərirlər.

Xaricdən muxtar respublikamıza gələn bütün avtonəqliyyat vasitələri sensorla işləyən dezinfeksiyaedici qurğulardan keçir. Məhz lazımi profilaktika aparılandan sonra həmin nəqliyyat vasitələri muxtar respublika ərazisinə buraxılır.

Xaricdən gələn şəxslərin bədən temperaturuna termal-kameralar vasitəsilə nəzarət olunur. Həmçinin vizual olaraq da tibbi müşahidə aparılır. Şübhəli hal qeydə alındıqda həmin şəxs nəzarətə götürülür, sərhəd-keçid məntəqələrindəki sanitar otaqlarda müayinə olunur və Səhiyyə Nazirliyi, o cümlədən ən yaxın tibb müəssisəsi ilə məlumat mübadiləsi aparılır.

Gün ərzində sərnişin giriş zallarındakı qapıların dəstəkləri, döşəmələr, qeydiyyat yerləri mütəmadi olaraq xüsusi məhlulla dezinfeksiya edilir, yoluxucu xəstəliklərin profilaktikası üçün bütün zəruri tədbirlər lazımi səviyyədə həyata keçirilir.

Sərhəd-keçid məntəqələrində Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin tibb personalı da fəaliyyət göstərir. Məqsəd yoluxucu xəstəliklərlə bağlı sərhəddən gələ biləcək təhlükələrə qarşı birgə mübarizə aparmaqdır.

Sərhəd-keçid məntəqələrində yoluxucu xəstəliklərin profilaktikası məqsədilə görülən işlər təkcə H1N1 virusunun deyil, ümumilikdə, bütün yoluxucu xəstəliklərin, o cümlədən qonşu ölkələrdə yayılmış dabaq xəstəliyinin də muxtar respublikaya keçməsinin qarşısının alınmasına xidmət edir. Bu məqsədlə həmçinin gömrük orqanları tərəfindən xaricdən gətirilən heyvandarlıq məhsullarına qarşı ciddi nəzarət və məhdudiyyət tədbirləri də həyata keçirilir.

Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumata görə, "donuz qripi" virusu müxtəlif H1N1 viruslarının qarışığından yaranır. Xəstəliyin əlamətləri adi insan qripinin əlamətlərinə oxşar olsa da, özünü daha ağır formada göstərir. Hava yolu və xəstə insanla yaxın təmas nəticəsində xəstəlik asanlıqla yayıla bilir. Mütəxəssislər isə deyirlər ki, xəstəlikdən uzaq durmağın başlıca şərti şəxsi gigiyena qaydalarına düzgün əməl etmək və immun sistemini qüvvətləndirməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti

Dünən Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrında böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin birpərdəli "Kamança" pyesi yeni quruluşda tamaşaçılara təqdim edilmişdir.

"Kamança" tamaşası teatrsevərlərə təqdim olunmuşdur

Tamaşadan əvvəl Ordubad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyev çıxış edərək bildirmişdir ki, tamaşa 20 Yanvar faciəsinə həsr olunmuşdur. Pyesdəki faciələr qədim Qarabağ torpağında bir əsr bundan əvvəl baş versə də, müasir dövrlə səsləşir. Xüsusilə tamaşanın final hissəsinin bu günümüzlə bağlanması insanları düşündürmək məqsədi daşıyır.

Sonra teatrsevərlər "Kamança" pyesi əsasında hazırlanmış tamaşaya baxmışlar. Qəhrəman yüzbaşı (Oruc Əliyev) ətrafına qorxmaz cavanları toplayaraq öz həmvətənlərini ermənilərdən qoruyur. Oruc Əliyev Qəhrəman yüzbaşı surətini təbii və canlı şəkildə tamaşaçılara təqdim etməyi bacarmışdır. Nadir Məhərrəmovun oynadığı kamançaçalan Baxşı surəti də tamaşanın ən dinamik və maraqlı obrazı kimi yadda qalır. C.Məmmədquluzadənin dərin humanizmi və sənətkarlığı bu kiçikhəcmli pyesdə hər an görünür. Böyük ədib kamançanı da obraz səviyyəsinə qaldırır.

Tamaşadakı Qaraş (Emin Yusifli), Əziz (Rəcəb Quliyev), Həsənəli (Xəyal Bayramov), Novruz (Arzu Quliyev), Zeynəb (Günəş Ağayeva) dinamik və canlı surətlər kimi yaddaqalandır.

"Kamança" tamaşasının sonluğunun bu günümüzlə əlaqələndirilməsi isə tamaşanı daha baxımlı edir. Öz elini, həmvətənlərini qoruyan azərbaycanlıların həlak olması, Dədə Qorqudun (Azər Əliyev) səhnəyə gələrək milləti ayıq olmağa çağırması, Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi tamaşaçıya mövzunun bu gün də aktual olmasından xəbər verir.

"Kamança" tamaşasının rejissoru Günəş Ağayeva, musiqi tərtibatçısı Qasım Rəhimov, tərtibatçı rəssamı Hikmət Əliyevdir.

Əli RZAYEV

Aztəminatlı ailələr diqqət mərkəzindədir

Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Şərur rayonunun Ərəbyengicə kəndində yaşayan aztəminatlı Abbasovlar ailəsinə baş çəkilib.

Ailə ilə görüş zamanı Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov, Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru İmran Əliyev bildiriblər ki, muxtar respublikada aztəminatlı ailələrə qayğı davamlı xarakter alıb. Cari ildə də aparılan uğurlu sosial siyasətin əsas məqsədi belə ailələrin maddi rifah halını yaxşılaşdırmaqdır. Bunun üçün sosial qayğıya ehtiyacı olan insanları da əhatə edəcək "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin edilməsi əsas məqsəd kimi müəyyənləşdirilib. Sevindirici haldır ki, sosial qayğıya ehtiyacı olan vətəndaşlarımızın gəlirləri daim artır. İqtisadi layihələrdən əldə edilən gəlirlər hesabına sosial proqramlar genişləndirilib, nəticə olaraq əhalinin sosial müdafiəsi daha da gücləndirilib. Aztəminatlı ailələrlə görüşlərin keçirilməsi də həmin ailələrin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir.

Sonra aztəminatlı ailənin yaşayış şəraiti ilə maraqlanılıb, ailə üzvləri tibbi müayinədən keçirilib, onlara ərzaq payı verilib.

Sonda ailənin üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi

2016-cı il üçün kotirovka elan edir

Dəftərxana ləvazimatlarının satın alınması.

Kotirovka 1 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 2 fevral 2016-cı il tarixdə saat 12^{00}-də Naxçıvan şəhərində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: Əbülfəz Qafarov
Telefon: 545-77-39
Ünvan: Naxçıvan şəhəri, "6-cı" məhəllə, 3

Babək Rayon Təhsil Şöbəsi

2016-cı il üçün kotirovka elan edir

Dəftərxana ləvazimatlarının satın alınması.

Kotirovka 22 yanvar 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 25 yanvar 2016-cı il tarixdə saat 12^{00}-də Babək Rayon Təhsil Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: Abbas Əliyev
Telefon: (050) 885-00-71, 541-34-71
Ünvan: Babək Rayon Təhsil Şöbəsi, Babək qəsəbəsi, Heydər Əliyev prospekti

Ordubad şəhər uşaq bağçası

2016-cı il üçün kotirovka elan edir

Ərzaq məhsullarının satın alınması.

Kotirovka 25 yanvar 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 26 yanvar 2016-cı il tarixdə saat 12^{00}-də Ordubad şəhər uşaq bağçasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: Məlahət Abdullayeva
Telefon: 547-11-74
Ünvan: Ordubad şəhəri, M.S.Ordubadi küçəsi

Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbi

2016-cı il üçün kotirovka elan edir

Ərzaq məhsullarının satın alınması.

Kotirovka 28 yanvar 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 29 yanvar 2016-cı il tarixdə saat 12^{00}-də Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: Mehman Vəlibəyov
Telefon: (050) 342-58-37
Ünvan: Ordubad şəhəri, Nəcəfqulu Rəfiyev küçəsi, 1

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: **Əli Cabbarov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 39